# Xüsusi təhsilə cəlb olunanların valideynlərinə və ya digər qanuni nümayəndələrinə uşaqlarını xüsusi təhsil müəssisəsinə, sağlamlıq və reabilitasiya mərkəzlərinə və tibb müəssisələrinə aparıb-gətirmək üçün müavinətin həcminin müəyyən edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

«Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsili) haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti

**QƏRARA ALIR:**

1. Xüsusi təhsilə cəlb olunanların valideynlərinə və ya digər qanuni nümayəndələrinə uşaqlarını xüsusi təhsil müəssisəsinə, sağlamlıq və reabilitasiya mərkəzlərinə və tibb müəssisələrinə aparıb-gətirmək üçün ayda *22 (*iyirmi iki*)* manat həcmində müavinət müəyyən edilsin.

1-1. Evdə təhsilə cəlb olunanların valideynlərinə və ya digər qanuni nümayəndələrinə uşaqlarını sağlamlıq və reabilitasiya mərkəzlərinə və tibb müəssisələrinə aparıb-gətirmək üçün ayda *22 (*iyirmi iki*)* manat həcmində müavinət müəyyən edilsin.

2. Həmin müavinət təhsil müəssisəsinin arayışı əsasında şəhər (rayon) təhsil şöbələri tərəfindən ödənilsin.

3. Göstərilən məqsədə tələb olunan xərclərin ödənilməsi dövlət büdcəsində «Təhsil xərcləri» üzrə nəzərdə tutulmuş vəsait hesabına təmin edilsin.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Artur Rasi-zadə,***

***Azərbaycan Respublikasının Baş naziri***

***Bakı şəhəri, 25 dekabr 2001-cı il***

***№ 200***